Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiyada yeni səfərbərlik olarsa, Ermənistan rusiyalıları qəbul etməyə hazırdır

13 dəqiqə öncə




Alen Simonyan

Ermənistan Rusiyada yeni səfərbərlikdən qaçan vətəndaşların ölkəyə girişinə mane olmayacaq. Bunu Ermənistan Təhlükəsizlik Şurasının katibi **Alen Simonyan** "Dojd" telekanalına müsahibəsində deyib.

Simonyan Rusiyada yeni səfərbərlik elan edilərsə, Ukraynada müharibəyə getmək istəməyənlərin Yerevana mümkün yeni axını barədə sualı cavablandırıb.

**"Sərhəddə heç kim heç kimdən bura niyə gəldiyini soruşmayacaq. Rusiyadan insanlar bizə xarici pasportsuz gələ bilərlər. Rusiyalılara yalnız bir söz deyə bilərəm: 'Ermənistana xoş gəlmisiniz'. Ermənistan buna mane olmayacaq",** – Simonyan bildirib.

Ermənistan Rusiya vətəndaşlarının ən çox üz tutduğu ölkələrdən biridir. Onlar əsasən Kremlin siyasəti, Ukraynaya qarşı müharibə ilə razılaşmayanlardır. 2022-ci ildə Ermənistana təxminən 110 min rusiyalı köçüb. Bundan başqa ölkədən tranzit məntəqəsi kimi istifadə edənlər də var.

Sentyabrın 18-20-də Dövlət Dumasına seçkilər keçiriləcək. Rusiya prezidenti Vladimir Putinin seçkilərdən sonra yeni səfərbərlik elan olunacağına dair şayiələr yayılmağa başlayıb. Rusiya vətəndaşları isə ölkədən getmək imkanları ilə daha çox maraqlanmağa başlayıblar.

Rusiya rəsmiləri yeni səfərbərlik planlarının olmadığını deyirlər.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur